| Məhsulun təsviri | Aşağıdakı şəxslər üçün əlverişlidir | Nəyə bənzəyə bilər | |
|---|---|---|---|
| **Tutacaq:** Şəxsə müvazinəti saxlamağa və ya hərəkət etməyə kömək etmək üçün sabit dəstək. | Yataq otağında, vanna otağında, ayaqyolunda hərəkət edərkən və ya addım atarkən əlavə dəstəyə ehtiyacı olan şəxslər üçün əlverişlidir. |  |  |
| **Portativ rampa:** Yerə bərkidilməyən və ehtiyac olan yerə aparıla bilən rampa. | Təkərli oturacaqdan, rollatordan və ya yerimək üçün çərçivədən istifadə edən və müxtəlif yerlərə qısa pilləkən vasitəsilə daxil olmağa ehtiyac duyan şəxslər üçün faydalıdır. |  |  |
| **Münasib ayaqqabbılar:** yaşadığınız yerdə satın ala biləcəyiniz, kip oturan və ayaqları qoruma və yıxılma riskini azaltma xüsusiyyətlərinə malik olan ayaqqabılar. | Yıxılma riski olan, yeriməyə köməkçi vasitədən istifadə edən, yaxud daban yarası əmələ gəlmə riski olan şəxslər üçün vacibdir. |  |  |
| **Müalicəvi ayaqqabı:** ayaqları qorumağa və dəstəkləməyə kömək edən, xüsusi cəhətlərə malik ayaqqabılar. | Orta və ya yüksək dərəcədə daban yarası riski olan insanların ehtiyacı ola bilər. |  |  |
| **Transfer üçün sürüşkən lövhə:** Transfer üçün sürüşkən lövhələr insanların bir yerdən başqa yerə hərəkət etməsinə kömək edir. | Təhlükəsiz şəkildə ayaq üstə dayanma və ya ayaqları üzərində ağırlıq daşıma problemi olan şəxslər üçün faydalıdır. |  Transfer üçün maili sürüşkən lövhə  Transfer üçün düz sürüşkən lövhə |  |

| | | |
|---|---|---|
| **Yeriməyə köməkçi vasitələr:** Yeriməyə köməkçi vasitələr insanların ayaq üstə dayanmasına, oturmasına və yeriməsinə kömək edir. | Müxtəlif insanların ehtiyaclarına yeriməyə köməkçi vasitələrin müxtəlif növləri uyğun gəlir. |  Rollator  Dirsək ağacları |
| **Aşağı ətraf ortezi:** İnsan bədəninin bir hissəsinə dəstək verən dayaq və ya şin. Ortez, reabilitasiya xidməti və ya protez-ortez xidməti vasitəsilə təmin edilir. | Müxtəlif insanların ehtiyaclarına müxtəlif növ ortezlər uyğundur. |  Diz üçün dayaq  Topuq ortezi |
| **Aşağı ətraf protezi:** İnsanın ayağının və ya baldırının çatışmayan hissəsini əvəz edir. Aşağı ətraf protezi bütün hallarda səriştəli protezçi tərəfindən fərdi ehtiyaca uyğun hazırlanır. | Amputasiya olunmuş və ya ayağının və ya baldırının bir hissəsi olmayan şəxslər üçün əlverişlidir.<br>Ayağının və ya baldırının bir hissəsi olmayan insanların heç də hamısı aşağı ətraf protezindən istifadə edə bilmir. |  Dizaltı protez  Dizüstü protez |
| **Yerimək üçün arxa hissəyə yerləşdirilən çərçivə:** Uşağa arxa hissədən dayaq verən çərçivə. Bir çox hallarda ayaq topuğu ortezi kimi digər köməkçi məhsullarla birlikdə istifadə edilir və reabilitasiyanın tərkib hissəsi kimi təmin edilir. | Beyin iflici olan uşaqlar üçün əlverişlidir. |  |
| **Ayaq üstə dayanma çərçivələri və uzanma dəstəkləri** | Dəstək olmadan təhlükəsiz şəkildə uzanmaqda və ayaq üstə durmaqda çətinlik çəkən uşaqlarda və böyüklərdə sağlamlıq problemlərinin qarşısını almağa kömək edir. |  Ayaq üstə dayanma çərçivəsi  Uzanma dəstəyi |

# Məhsul nümunələri: Hərəkətlilik

| | | |
|---|---|---|
| **Təkərli oturacaqlar** Hərəkət etmək və oturmaq üçün təkərli dəstək təmin edir. | Yeriyə bilməyən və ya yerimədə böyük çətinlik çəkən insanlar tərəfindən istifadə edilir.<br>Müxtəlif insanların ehtiyaclarına müxtəlif növ təkərli oturacaqlar uyğundur. |   |

**Yadda saxlayın: Bu məhsulların hamısı üçün təminatın dörd addımını həyata keçirmək vacibdir**

Birinci addım - Qiymətləndirmək

İkinci addım - Uyğunlaşdırmaq

Üçüncü addım - İstifadə etmək

Dördüncü addım - İzləmək